

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 50 (23.937)

15 mart 2022-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasında təltiflərin təqdimatı olub





Martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının medallarının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının, eləcə də “Rəşadətli əməyə görə” nişanının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanlara çalışdıqları sahələrdə fərqləndiklərinə və göstərdikləri xidmətlərə görə təşəkkürünü bildirmiş, fəaliyyətlərində uğurlar arzulamış və qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırmışdır.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının medallarını və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini, eləcə də “Rəşadətli əməyə görə” nişanını təqdim etmişdir.

Təltif olunanlardan Lətif Şükürlü, Talıb Babayev, Elşad Məmmədov, Zərövşən Babayeva, Ruqiyyə Məmmədova, Səkinə İsmayılova, Fərqanə Muxtarova əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq etmişlər. Qeyd olunmuşdur ki, muxtar respublikada bütün sahələrdə yaradılan şərait səmərəli fəaliyyət üçün geniş imkanlar açır. İnsanların rahatlığına xidmət edən yeni sosial obyektlər tikilir, maddi-texniki baza təkmilləşdirilir. Müxtəlif sahələrdə çalışanların əməyinin qiymətləndirilməsi, əməkhaqlarının artırılması isə onları fəaliyyətlərində daha da ruhlandırır. Qarşıda duran əsas vəzifə bundan sonra da etimadı doğrultmaq, yeni nailiyyətlərin əldə olunması üçün var qüvvə ilə çalışmaqdır. Təltif olunanlar qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırmışlar.

Naxçıvan Muxtar Respublikasının “Əməkdar tibb işçisi” fəxri adı ilə təltif olunan şəhid anası Gülşad Rüstəmova təltif olunması münasibətilə minnətdarlıq etmiş, muxtar respublikada şəhid ailələrinə göstərilən diqqət və qayğını yüksək dəyərləndirmişdir.

“Rəşadətli əməyə görə” nişanı ilə təltif olunan şəhid anası Rəna Hüseynova yaradılan şəraitə görə çalışdığı kollektiv adından minnətdarlıq edərək demişdir: “Muxtar respublikada şəhid adı daim uca tutulur, onların ailə üzvlərinə diqqət göstərilir. Şəhid ailəsi olaraq dövlətimiz tərəfindən daim qayğı ilə əhatə olunmuşuq”.

Ali Məclisin Sədri şəhidlərimizə rəhmət diləmiş, bir daha təltif olunanları təbrik etmiş, işlərində uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvanda təhsil alan əcnəbi və ölkəmizin digər regionlarından olan tələbələrə bayram payı verilib

*Martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə muxtar respublikada təhsil alan əcnəbi və ölkəmizin digər regionlarından olan 200 tələbəyə Novruz bayramı münasibətilə ərzaq payı təqdim olunmuşdur.*

Naxçıvan Dövlət Universitetində bu münasibətlə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələrlə yanaşı, təhsilə də hərtərəfli dövlət qayğısı göstərilir, yeni binalar tikilir, tədris bazası gücləndirilir. Göstərilən dövlət qayğısı sayəsində təhsilin səviyyəsi yüksəlmiş, ixtisaslı kadrların hazırlanmasında mühüm uğurlara nail olunmuşdur. Bu qayğıdan Naxçıvan Dövlət Universitetinə də pay düşmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada təhsil alan tələbələrin qayğılarını daim diqqətdə saxlayır, onların maddi vəziyyətinin yaxşılaşdırılması üçün lazımi tədbirlər həyata keçirilir. Xalqımızın milli bayramları içərisində özünəməxsusluğu ilə seçilən Novruz bayramı ərəfəsində tələbələrə bayram sovqatının verilməsi də bu sahədə görülən işlərin davamıdır.





Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirmişdir ki, muxtar respublikanın ali təhsil müəssisələri Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Yaradılan təhsil şəraiti muxtar respublikada təhsil almaq istəyən əcnəbi tələbələrin sayını artırmışdır. Son dövrlərdə istər pandemiya ilə əlaqədar, istərsə də əlamətdar bayram günləri ərəfəsində tələbələrə maddi yardımların göstərilməsi də bu qayğının təzahürüdür. Bu gün isə Novruz bayramı münasibətilə tələbələrə bayram sovqatı verilir. Elbrus İsayev ali təhsil müəssisələrinin müəllim-tələbə heyətləri adından Ali Məclis Sədrinə minnətdarlığını bildirmişdir.

Sonra muxtar respublikada təhsil alan əcnəbi və ölkəmizin digər regionlarından olan tələbələrə ərzaq payları təqdim edilmişdir.

**“Şərq qapısı”**

## Tələbə-mühəndislər istehsalat təcrübəsi keçir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı imzaladığı sərəncamlardan irəli gələn vəzifələrin icrası məqsədilə muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrinin aid ixtisasları Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyinə verilib.*

Ötən müddət ərzində nazirlik tərəfindən tələbələrin müasir tədris vasitələrindən istifadə edərək öz bilik və bacarıqlarını inkişaf etdirmələri üçün bir sıra tədbirlər həyata keçirilib. Hazırda Naxçıvan Dövlət Universitetinin və “Naxçıvan” Universitetinin aid ixtisaslarında təhsil alan tələbələr Rabitə və Yeni Texnologiyalar Nazirliyində istehsalat təcrübəsi keçirlər.

Tədris müddəti ərzində tələbələrin təcrübə keçmələri üçün zəruri şərait yaradılıb, onlar



nazirliyin və tabeli qurumların fəaliyyəti ilə tanış edilib, maarifləndirici görüş və seminarlar keçirilib.

Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin Tədris bölməsində istehsalat təcrübəsi keçən tələbələrə slaydlar vasitəsilə veb-saytların müasir üslubda tərtib edilməsi, şəbəkələr və sistem inzibatçılığı, həmçinin frontend və backend devoloperlər üçün nəzərdə tutulmuş proqramlaşdırma dilləri və həmin proqramlaşdırma dillərinin müxtəlif kitabxanaları barədə ətraflı məlumat verilib. Tələbələrə kompüterin texniki hissələri və digər avadanlıqlarının xüsusiyyətləri ətraflı izah olunub. Bunlarla yanaşı, analoq və rəqəmsal elektronika, süni intellekt, nanotexnologiya, robotexnika, mexatronika və 5G texnologiyaları haqqında məlumatlar verilib. Kompüterlər arası ünsiyyətdə və kompüterlərin yerli şəbəkələrə bağlanmasında istifadə edilən cat 6, cat 7 ethernet əlaqə kabellərinin RJ-45 başlıq hissəsinin birləşdirilməsi, həmçinin yeni nəsil avtomat telefon stansiyaları və onların iş prinsipləri ilə əyani tanışlıq olub. “Argus 156 tester” markalı avadanlığın texniki göstəriciləri barədə də tələbələr məlumatlandırılıb.

Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi publik hüquqi şəxsdə təcrübədə olan tələbələrə yeni mobil şəbəkə standartları, rəqəmli televiziya və peyk yayımı, tezlik diapazonları və zolaqları, “Naxçıvanpoçt” publik hüquqi şəxsdə isə tələbələrə məktubların, banderolların, teleqraf göndərişlərinin, pul baratlarının, eləcə də bağlamaların qəbulu, göndərilməsi və poçt sahəsində göstərilən digər xidmətlər barədə məlumatlar verilib.

Qeyd edək ki, tələbələrin belə təcrübələrdə iştirak etmələri onların gələcəkdə çalışacaqları informasiya-kommunikasiya texnologiyaları sahəsində peşəkar kadr kimi formalaşmalarına və bu sahənin sirlərini daha dərindən yiyələnmələrinə şərait yaradır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

15 mart Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günüdür

# İstehlakçı hüquqlarının müdafiəsi ümumi inkişafa paralel olaraq təkmilləşdirilir

*Hər il martın 15-i ölkəmizdə “Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü” kimi qeyd olunur.*

İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz ulu öndərimizin təşəbbüsü ilə 1995-ci il sentyabrın 19-da “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, bu sahədə hüquqi bazanın tam şəkildə formalaşdırılması istiqamətində məqsədyönlü və ardıcıl işlər həyata keçirilmişdir. Hazırda ölkəmizdə bütün sahələrdə keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ciddi tədbirlər görülür. Bu gün ölkəmizdə daxili bazarın formalaşdırılması və istehlakçı hüquqlarının qorunması istiqamətində qarşıya qoyulan əsas vəzifə əhalinin istehlak mallarına olan tələbatını maksimum səviyyədə yerli istehsal hesabına yüksəkkeyfiyyətli məhsullarla təmin etməkdən ibarətdir. İstehlakçıların hüquqlarının müdafiəsini nəzərdə tutan ayrı-ayrı Dövlət proqramlarının, qanunların, qərar və qaydaların muxtar respublikanın aidiyyəti orqanları tərəfindən icrası diqqət mərkəzində saxlanılır.

İqtisadi inkişafın səmərəliliyinin artırılmasında keyfiyyətin əsas meyar kimi qəbul olunduğu muxtar respublikada daxili bazarın, istehlakçıların hüquq və mənafelərinin qorunması istiqamətində təsərrüfat subyektlərində istehsal edilən və idxal olunan məhsulların keyfiyyətinə dövlət nəzarəti işi hər zaman diqqətdə saxlanılır. Muxtar respublikada daxili bazarda istehlakçıların hüquq və mənafelərinin qorunması istiqamətində müvafiq qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilmiş konkret tədbirlər həyata keçirilmişdir. Ardıcıl olaraq yerli və idxal olunan məhsulların keyfiyyətinə dövlət nəzarətinin diqqətdə saxlanılması nəticəsində hazırda muxtar respublikada əmtəə bazarının keyfiyyətsiz və sağlamlıq üçün təhlükəli məhsullardan qorunması vəzifəsi uğurla icra edilir. Ötən dövrdə həyata keçirilən müxtəlif tədbirlər, istehlakçı hüquqları ilə bağlı kütləvi informasiya vasitələrində çıxışların edilməsi, həmçinin istehsal, ticarət və xidmət, ictimai iaşə obyektlərində çalışan işçilərin maarifləndirilməsi bu baxımdan əhəmiyyətli olmuşdur.





Ötən il yerli məhsulların daxili və xarici bazarlarda rəqabətqabiliyyətliliyi, təsərrüfat subyektlərinin istehsal-xidmət şəraiti, məhsul göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğuna nəzarət diqqətdə saxlanılmış, ümumilikdə, məhsul nümunələrinin 1007 halda, o cümlədən qida məhsullarının 946 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunmuş və bu istiqamətdə ciddi nöqsanlar aşkar edilməmişdir. Analiz olunmuş mallar, əsasən, taxıl emalı məhsulları, unlu-qənnadı məmulatları, süd və süd məhsulları, konservlər, ət və ət məhsulları, meyvə-tərəvəz, mineral sular və digər məhsullar olmuşdur. 2021-ci il ərzində, ümumilikdə, standartların tələblərinə uyğun olmayan 321 manat dəyərində keyfiyyətsiz və ya kontrafakt məhsullar satışdan çıxarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə diqqət və qayğısı sayəsində həyata keçirilən tədbirlər istehlakçıların hüquqlarının qorunmasına, əhalinin tələbatının daha keyfiyyətli məhsullarla ödənilməsinə hərtərəfli şərait yaratmışdır. Bu il fevral ayının 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ali Məclisin Sədri demişdir: ***“Muxtar respublikada sahibkarlığın inkişafında yerli məhsulların istehsalı qədər onların satışının təşkili də mühüm əhəmiyyət daşıyır. Yaşayış məntəqələrində iri ticarət mərkəzlərinin və bazarların fəaliyyət göstərməsi, mövsüm ərzində yarmarkaların təşkili, yerli məhsullara üstünlük verilməsi və istehsaldan birbaşa satışa prinsipinin dəstəklənməsi məhsul istehsalçılarının marağını artırmışdır. Bu, bir həqiqətdir ki, sahibkarlığın inkişafı məşğulluğun təmin olunmasına və sosial rifaha birbaşa təsir edir”.*** Bütün bunlar, nəticə etibarilə, istehlakçıların təhlükəsiz və keyfiyyətli məhsullarla təmin edilməsinə şərait yaradan vacib amillərdəndir. Ona görə ki, yerli istehsalın təşkili bir tərəfdən xaricə valyuta axınının qarşısını alaraq idxaldan asılılığı aradan qaldırırsa, digər tərəfdən məhsulun istehlakçılara daha münasib qiymətlərlə çatdırılmasına imkan yaradır, eyni zamanda mənşəyi məlum olmayan, ekoloji cəhətdən o qədər də təmiz hesab edilməyən məhsulların bazarlara yol açmasının qarşısını alır. Bu da muxtar respublikada daxili bazarın, həmçinin istehlakçıların hüquqlarının qorunması deməkdir.

İstehlakçıların keyfiyyətli yerli məhsullarla təmin olunması məqsədilə mütəmadi olaraq istehsal olunan və tələbatı 100 faiz ödəyən məhsullar haqqında məlumat hazırlanaraq aidiyyəti üzrə göndərilmişdir. Ticarət, xidmət və istehsal müəssisələrinin sahibkarlarına rəqabətqabiliyyətli məhsul istehsalı və yerli məhsulların satışına üstünlük verilməsi istiqamətində sahibkarlara metodik tövsiyələr verilmişdir. Artıq sahibkarlar tərəfindən, xüsusilə yeyinti məhsullarının lazımi keyfiyyətdə istehsalına, onların saxlanma şəraitinə riayət olunmasına, daşınmasına və satışına, istehlakçılara göstərilən xidmət səviyyəsinin xeyli dərəcədə yaxşılaşdırılmasına nail olunmuşdur. Məhsulun tarladan süfrəyə, istehsalçıdan istehlakçıya çatdırılmasında bütün tələblərə riayət olunur ki, bu da Naxçıvan əhalisinin ekoloji cəhətdən təmiz, keyfiyyətli və etibarlı ərzaq təminatı deməkdir.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının qarşısının alınmasıdır. Bu məqsədlə 2021-ci ildə əhali tərəfindən daha çox istifadə olunan 14 min 726 adda ərzaq və qeyri-ərzaq məhsullarının orta bazar qiymətlərinə nəzarət edilmiş və süni qiymət artımına yol verilməmişdir.

Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı diqqətdə saxlanılır. Sahibkarlığın İnkişafı Fondu tərəfindən onların fəaliyyətlərinin stimullaşdırılması, genişləndirilməsi üçün 76 ailə təsərrüfatına 1 milyon 221 min 400 manat güzəştli kredit verilmiş, ailə təsərrüfatları müxtəlifölçülü taralarla təmin edilmişdir. Yaradılan şərait və həyata keçirilən tədbirlər ailə təsərrüfatlarının inkişafı ilə yanaşı, həm də istehlakçıların yerli, keyfiyyətli və standartlara uyğun qablaşdırılmış məhsullarla təminatına imkan verir.

Yerli məhsulların satışına və təbliğinə geniş imkanlar açan, bazardakı bolluğu təmin edən kənd təsərrüfatı yarmarkaları daxili bazarın inkişaf etdirilməsində və istehlakçıların artan tələbatının yerli və sağlam məhsullarla qarşılanmasında mühüm rol oynayır. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində kənd təsərrüfatı və sənaye məhsulları yarmarkası təşkil olunmuş və məhsulların bazar qiymətlərindən daha sərfəli qiymətlərlə satılmasına nəzarətin həyata keçirilməsi təmin edilmişdir. Bundan başqa, sahibkarlar idxal edəcəkləri malların istehlak müddətinə, gigiyenik vəziyyətinə, keyfiyyət göstəricilərinə də diqqəti artırmışlar. İstehlakçılar istər ərzaq, istərsə də qeyri-ərzaq məhsulları alarkən yerli istehsala, yerli markaya üstünlük verməlidir. Çünki yerli məhsulun istehlakı həmin məhsulu istehsal edən müəssisənin daha da güclənməsi, ümumilikdə, muxtar respublikanın iqtisadi qüdrətinin artması deməkdir.

**“Şərq qapısı”**

*Qəbul olunmuş Dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrası, güzəştli kreditlərin verilməsi, meliorasiya və irriqasiya tədbirlərinin aparılması, lizinq xidmətinin gücləndirilməsi, taxıl və soyuducu anbarların həcminin artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının və meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması muxtar respublikada kənd təsərrüfatının dinamik inkişafını təmin etmişdir.*

# Bitki yağı istehsalı genişləndirilir

Aqrar sahənin inkişafı həm də sənayenin inkişafına öz təsirini göstərir. Ona görə də diyarımızda həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri sənaye məhsulları istehsalı ilə davamlı inkişafa nail olmaqdır. Bu baxımdan hər il yeni istehsal müəssisələrinin yaradılması təqdirolunasıdır. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixdə Şərur Sənaye Məhəlləsinin yaradılması haqqında Fərman imzalamışdır. Naxçıvan iqtisadi regionunda Şərur Sənaye Məhəlləsinin yaradılması mühüm əhəmiyyət daşıyır. Burada fəaliyyət göstərəcək istehsal sahələri həmin məhsulların idxalının azaldılmasında mühüm rol oynamaqla, ixracın və rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsinə imkan verəcək.

Qeyd edək ki, qazanılmış müsbət nəticələrin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı” təsdiq olunub. Proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı məhsullarının istehsal, emal və ixrac potensialının gücləndirilməsi diqqət mərkəzində saxlanılmış, yerli xammala əsaslanan qarğıdalı yağı və günəbaxan istehsalına başlanması nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 2022-ci ilin muxtar respublikada “Sənaye ili” elan olunması ilə bağlı təsdiq edilmiş “Tədbirlər Planı”nda digər sahələrlə yanaşı, bitki yağı istehsalının inkişafının dəstəklənməsi qarşıya məqsəd qoyulmuşdur. Bitki yağı istehsal edən emal müəssisənin keyfiyyətli xammala olan tələbatın yerli istehsal hesabına ödənilməsi istiqamətində yağlı günəbaxan sortu, yağ üçün qarğıdalı sortu və sair bitkilərin əkilməsi qeyd edilmişdir.

Yağlı bitkilər içərisində istifadə edilməsinə, təsərrüfat əhəmiyyətinə, iqtisadi səmərəliliyinə görə qarğıdalı və günəbaxan bitkilərinin özünəməxsus yeri vardır. Qarğıdalı xalq təsərrüfatında ərzaq, texniki məqsədlər və yem kimi istifadə edilən bitkidir. Dənin tərkibində, torpaq-iqlim şəraitindən və becərmə texnologiyasından asılı olaraq 65-75 faiz nişasta, 7,5-12 faiz zülal, 1-2 faiz şəkər, 4-8 faiz yağ (nüvəsində 40 faiz), 1,5-2 faiz kül elementləri, mineral duzlar və vitaminlər var. Müəyyən edilmişdir ki, ərzaq və texniki məqsədlə bu bitkidən 146 məmulatın hazırlanmasında istifadə olunur. Qarğıdalının dənindən un, yarma, konserv, nişasta, etil spirti, pivə, dekstrin, qlükoza, saxaroza, sirop (şirə), yağ, E və C vitaminləri alınır.





Qarğıdalı istiliksevən qısa gün bitkisidir, dənləri +8-10$^{0}$C temperaturda cücərməyə başlayır. Qarğıdalını həm növbəli əkin tədbiq etməklə, həm də bir neçə il eyni sahədə əkməklə becərmək mümkündür. Ən yaxşı sələflər payızlıq taxıllar, birillik dənli-paxlalı bitkilər, kartof, şəkər çuğunduru və sairdir. Torpağın becərilməsinə payızdan başlamaq lazımdır. Becərmə torpağın mexaniki tərkibindən, sələflərdən asılıdır. Qarğıdalı güclü kök sistemi əmələ gətirdiyindən torpağın dərin becərilməsinə tələbkardır.

Əkiləcək sahə bitki qalıqlarından təmizləndikdən sonra sahəyə üzvi və mineral gübrələr verərək 27-30 santimetr dərinliyində şumlamaq lazımdır. Erkən yazda sahə alaq otlarına qarşı mübarizə məqsədilə 12-15 santimetr dərinliyində kultivasiya edilərək malalanır və əkinə hazır vəziyyətə gətirilir.

Gələcəkdə baş verə biləcək xəstəliklərə qarşı mübarizə məqsədilə toxum vitavaks, rubin 2DS, tubazol, saneb M-22 və sair dərmanlarının biri ilə dərmanlanmalıdır. Qarğıdalı bitkisinə fiziki çəkidə muxtar respublika şəraitində 400-500 kiloqram azot, 500-600 kiloqram fosfor, 150-200 kiloqram kalium gübrələrinin verilməsi məsləhətdir.

Səpin norması torpaq-iqlim şəraitindən, toxumun iriliyindən və səpin sxemindən asılı olaraq dəyişə bilər. Dən almaq məqsədilə səpin norması hektara 20-25 kiloqram, silos və yaşıl yem üçün isə 25-30 kiloqrama qədər götürülə bilər. Toxumlar mexaniki tərkibi ağır olan torpaqlarda 5-6 santimetr, yüngül torpaqlarda 8-10 santimetr dərinliyə basdırılır. Toxum əkildikdən sonra sahədə suvarılma aparılmalıdır. Əgər torpaqda nəmlik tutumu yağıntı hesabına 65-70 faiz həddində olarsa, suvarmaya ehtiyac yoxdur və həmin nəmlik hesabına sahədə normal çıxış alınacaqdır.

Qarğıdalı sahəsində alaq otlarına qarşı mübarizədə kimyəvi mübarizə üsulu daha səmərəli sayılır. Bundan ötrü hektofermin (2,4 D amin duzu) herbisidlərindən istifadə olunur. Amin duzu hektara 2-2,5 litr normada istifadə edilir. Hektara işçi məhlul 300-400 litr işlədilə bilər.

Əkinçilik sistemində yağ almaq məqsədilə istifadə olunan yağlı bitkilərdən biri də günəbaxandır. Günəbaxan, əsasən, yağlı bitki kimi becərilir. Müasir sort və hibrid tumlarının tərkibində, 16 faiz zülal və 50-56 faiz açıq-sarı rəngli yaxşı dad keyfiyyətinə malik ərzaq yağı olur. Günəbaxan yağından təbii halda ərzaq yağı kimi, yeyinti sənayesində geniş istifadə edilir.

Səpin üçün rayonlaşdırılmış sort və hibridlərin sağlam və yetişmiş birinci reproduksiyalı iri toxumlardan istifadə olunmalıdır. Toxumların cücərmə qabiliyyəti ən azı 92 faiz, təmizliyi isə 99 faiz olmalıdır. Gələcəkdə göbələk xəstəliklərinə qarşı saneb M-22, rubin 2DS və tubazol preparatlarının biri ilə 1 ton toxuma 1,5 kiloqram məsarif normasında dərmanlanmalıdır.

Səpin erkən yazda hava şəraitindən asılı olaraq mart ayının axırları və aprel ayının əvvəllərində aparılır. Səpin norması hektara 8-14 kiloqram toxum götürülür. Toxumların normal basdırılma dərinliyi 6-8 santimetr quraqlıq şəraitdə 8-10 santimetr dərinliyə basdırılır.

Günəbaxan bitkisinə fiziki çəkidə muxtar respublika şəraitində 200-250 kiloqram azot, 300-350 kiloqram fosfor, 150-200 kiloqram kalium gübrələrinin verilməsi məsləhətdir.

Sortlaşdırılmış və təmizlənmiş günəbaxan toxumları səpinə 1,5-2 ay qalmış (ancaq 2 həftədən az olmayaraq) kimyəvi maddələrlə dərmanlanır. Boz çürüməyə və yalançı unlu şeh xəstəliyinə qarşı saneb M-22 və trival forte preparatından istifadə edilir.

“Naxçıvan Aqroliziniq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə muxtar respublikaya kifayət qədər qarışıq (N-azot, P-fosfor K-kalium) tərkibli və karbamid gübrələri, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin xətti ilə yağlı qarğıdalı toxumu gətirilərək satışı təşkil edilmişdir.

Yaxın günlərdə isə “Naxçıvan Aqroliziniq” Açıq Səhmdar Cəmiyyəti və “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin xətti ilə yağlı qarğıdalı və yağlı günəbaxan toxumu gətirilərək satışı həyata keçiriləcəkdir. Bu məqsədyönlü siyasətin davamı olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə əkilən yağlı qarğıdalı və yağlı günəbaxan bitkilərinin hər hektarına subsidiya verilməsi nəzərdə tutulmuşdur.

Muxtar respublikada əkin aparan mülkiyyətçilərin əkdikləri məhsullarının təbii fəlakətlərdən qorunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 8 yanvar 2020-ci il tarixli Fərmanı ilə Aqrar Sığorta Fondu yaradılmışdır. Risk və fəlakətlərlə üzləşən istehsalçılar, aqrar sığortadan səmərəli istifadə edərək bu riskləri kompensasiya edə bilərlər. Deməli, əkilən hər hektar yağlı qarğıdalı və yağlı günəbaxan sahələrinə görə subsidiyaların verilməsi, istehsal olunan məhsulun dövlət tərəfindən mülkiyyətçilərə sərf edən qiymətə alınması ilə yanaşı, onların təbii fəlakətlərdən qorunması da mülkiyyətçilərin ümumi marağına xidmət edir.

**Zəkəriyyə GÖZƏLOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri***

***Tanrı öz bəndələrinə qəribə tale, ruzi, qismət, ömür payı, alınyazısı verib. Birinə yüksək dəyərli mənəviyyat, yüksək əxlaqi-keyfiyyət, birinə yüksək zəka və idrak bəxş edib. Kimisinə isə bu məziyyətlərlə yanaşı, əllərinə şəfa, ürəyinə təpər verir ki, insanların sağlamlığı keşiyində dayansın. O da bax belə insanlardandır. O, dünyaya gəlib ki, körpələrə öz sevincli, şəfalı əllərini uzatsın, onlara köməklik etsin. Baharın ilk çağında nərgizin, bənövşənin torpaqdan boy atdığı, dünyanın qış yuxusundan oyandığı bir gündə dünyaya göz açıb. Qəlbi, əməli, niyyəti, arzusu da həmişə baharlı olub. İnsanlara həmişə bahar sevinci, xoşbəxtliyi bəxş edib. Xeyirxahlıq, qayğıkeşlik, seçdiyi həkimlik peşəsinin, xüsusən uşaq həkimi sənətinin müqəddəsliyini qorumaq, nüfuzunu saxlamaq onun üçün ali məqsədə çevrilib. Bu şərəfli amalı gerçəkləşdirmək o qədər də asan deyil və həm də hər kəsə qismət olmur. Haqqında söz açmaq istədiyim həkim ağbirçəyimiz, bir çox insani keyfiyyətləri özündə cəmləşdirən, uzun həyat yolu keçmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının şöbə müdiri Yazgül Rzayevadır.***

## 46 il uşaqların sağlamlığı keşiyində



O, ömrünün yarısından çoxunu elimizin, obamızın, Vətənimizin gələcəyi olan körpələrə şəfa verməyə sərf edib. 46 ildir ki, Naxçıvan səhiyyəsində külüng çalır, körpələrə şəfa paylayır. Övladı xəstə olan valideynlərin naümid gözlərinə ümid, nigaran baxışlarına sevinc çöhrəsi bəxş edən bu nəcib peşə yiyəsi Yazgül həkimi yenə iş başında, körpələri müayinə edərkən görürəm. Həkim deyir ki, elə gün olub ki, yenicə ana olduğum xəstəxana palatasından qalxıb öz körpəmin üzünü görməmiş ağır vəziyyətdə olan başqa bir körpəni müayinə etməyə yollanmışam. Muxtar respublikanın elə bir kəndi, şəhəri yoxdur ki, mən oraya xəstə müayinə etməyə getməyim. Xalqın müqəddəs saydığı, inanıb, etibar etdiyi həkim adını daşıyan insan hər dəqiqə qəfil gecə zənglərinə, qəfil hadisələrə hazır olmalıdır. Lazım gələrsə, lap pay-piyada da olsa, hökmən getməlisən. Axı orada həkimi nigarançılıqla, həyəcan hissi ilə gözləyən var. Hansı ixtisas həkimi olursansa ol, öncə həkimsən, insan sağlamlığının keşiyində dayanmalısan. Vətəni qoruyan sadiq, inamlı əsgər kimi.

Gözlərindən qayğı qarışıq fərəh, sevinc oxunan Yazgül həkim deyir ki, həkimlik rahatlıq sevənlərin sənəti deyil, gecəsi, gündüzü bilinməyən peşədir. Amma nə qədər əzablı-əziyyətli olsa da, sonu fərəhlidir. İşin sonunda bilirsən ki, kimi isə sevindirmisən, xeyirxahlıq etmisən. Belə məqamlarda keçirdiyin həyəcan da, əziyyətlər də insanın gözünə görünmür. Belə məqamlarla çox rastlaşmışam. Narahat ürəklərə təsəlli vermək, baxışlardakı nigarançılığı, narahatlığı sevincə çevirmək mənə görə dünyanın ən böyük xoşbəxtliyidir. Əlbəttə ki, bu, böyük əzm və iradə, eləcə də insanlığa dərin məhəbbət tələb edir.

Həkim onu da bildirir ki, günümüzdə xəstəlikləri müəyyən etmək üçün bir çox vasitələr vardır və onların köməyi ilə xəstəlikləri aşkara çıxarmaq daha da asandır: "Azərbaycan Tibb Universitetinə qəbul olub yaxşı qiymətlərlə oranı bitirib yurdumuza qayıdanda indiki gənclər qədər şanslı deyildim. Bizim o zamanlar nə müasir aparatlardan istifadə etmək imkanımız var idi, nə də ki hər cür şəraiti olan xəstəxanalardan. Naxçıvanın ilk uşaq nevropatoloqu idim. Uşaq həkimi olmağa da, bu ixtisası seçməyə də atamın istəyi ilə qərar versəm də, tələbə vaxtlarımdan öz ixtisasımı çox sevmiş və tibbi biliklərə dərindən yiyələnməyə çalışmışdım. Yaxşı bilirdim ki, işim çətin, məsuliyyətli olsa da, şərəflidir. Bu gün dönüb ötən illərə boylananda müstəqillik qazandığımız ilk illərdə çəkdiyimiz çətinliklər gözümdə canlanır. Təkcə həkim yox, ana kimi, qadın kimi dövlətimizə minnətdarlığım artır".

Muxtar respublikada səhiyyə sahəsinə göstərilən qayğıdan söz açan müsahibim deyir ki, Naxçıvanda Tibb fakültəsinin açılması səhiyyə sahəsinə göstərilən ən böyük qayğıdır: "Bir vaxtlar kiminsə övladının, kiminin isə özünün həkim olmaq arzusu ürəyində qalırdı. Çünki həkim olmaq üçün Naxçıvandan çox uzaqlarda – Rusiyanın soyuq, şaxtalı şəhərlərində, ya da paytaxt Bakıda yerləşən tibb universitetlərində təhsil almalı olurdular. Yəqin ki, bu sözlərimi hamı təsdiqləyər ki, ən az yeddi il tələbə oxutmaq, özü də uzaq diyarlarda, çətin olurdu. Ən əsası isə illər öncə bir çox valideyn qız övladının uzaqda təhsil almasını istəmirdi. Bu da səhiyyə sahəsində qadın həkimlərin sayını barmaqla sayılacaq həddə çatdırırdı. Tibb fakültəsi Naxçıvanın blokada şəraitində olması nəzərə alınaraq tibbi kadrlara olan tələbatı ödəmək üçün ümummilli liderimizin dəstəyi, Ali Məclisin Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə 1999-cu ildə yaradılıb. O dövrdə bir ixtisasla fəaliyyətə başlayan fakültə ötən dövr ərzində inkişaf edərək hazırda həm bakalavr, həm də rezidentura təhsili üzrə həkim hazırlığı həyata keçirir. Bu gün fakültənin müasir xəstəxanası tələbələrin nəzəri və praktik biliklərinin təkmilləşdirilməsində müstəsna rol oynayır. Muxtar respublikamızda fəaliyyət göstərən bütün xəstəxanalarda tələbələrin təcrübə keçmələrinə hər cür şərait yaradılıb. Tibb sahəsi üzrə yüksəkixtisaslı kadrlar hazırlamaq və dünya tibb elminə daha sıx inteqrasiya etmək üçün universitet qonşu ölkələrlə əməkdaşlıq edir. Universiteti bitirən həkimlər qonşu dövlətlərdə yüksək təkmilləşdirmə kurslarına göndərilir. 2001-ci ildən həm də Naxçıvan Dövlət Universitetində müəllim kimi fəaliyyət göstərirəm. Ötən illərdə bu fakültəni bitirən və Naxçıvanın səhiyyə ocaqlarında cəmiyyətin sağlamlığının keşiyində dayanan onlarla həkim vardır ki, onlar ölkəmizin bir çox rayonunda öz müqəddəs missiyalarını uğurla yerinə yetirirlər. Bu gün mən həm şəfa verdiyim körpələrə, həm müəllimi olduğum, peşəsində böyük nailiyyətlər qazanan gənc həkimlərə, həm də dövlətimizin yaratdığı imkanlarla gündən-günə inkişaf edən səhiyyəmizə baxıb qürur duyuram. Xəstəxanalarda yaradılan müasir şərait də həkim və tibb bacılarının işinin daha da keyfiyyətli olmasına imkan verir. Çalışdığım xəstəxananın müasir tibbi avadanlıqlarla təchiz edilməsi, bu avadanlıqlarla diaqnozların dəqiq qoyulması, müayinə və müalicələrin səmərəli aparılması üçün ağxalatlı peşə sahiblərinin insan sağlamlığının qeydinə qalmaq kimi mühüm və xeyirxah bir missiyanı uğurla həyata keçirmələrinə şərait yaradır".

Yazgül xanım deyir ki, Vətənimizdə bütün sahələrdə dövlətinə xidmət edən insanların əməyi daim yüksək qiymətləndirilir. Həkim də, müəllim də, mühəndis də, zəhmət adamı da bu qayğıdan öz payını alır. Mənim də əməyim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. 8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində cənab Prezidentimizin müvafiq Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmağım əməyimə verilən növbəti yüksək dəyər və diqqətdir.

Deyirlər, baharda doğulan insanlar daxilən daha zəngin olurlar. Belə adamlar gözəllik qanunları ilə qurub-yaratmağı sevir, həyat həqiqətinə olan güclü inamı, nəcibliyi, mənəvi zənginliyi, saflığı ilə seçilirlər. Yazgül xanım bacarıqlı həkim olmaqla yanaşı, həm də gözəl anadır. Onun bir qızı və iki oğlu, 7 nəvəsi var. Övladlarından biri və həyat yoldaşı bu şərəfli peşənin yiyəsidir. Həyat yoldaşı uzun illər xalqın sağlamlığının keşiyində dayanıb. O, hərbi xidmət rəisi işlədiyi vaxtlarda Sədərək döyüşlərində neçə-neçə Vətən övladını ölümdən xilas edib .

Övladlardan söz düşmüşkən, Yazgül həkimin bir tibb işçisi, ana kimi valideynlərə məsləhətini də oxucularımıza çatdırmaq istərdik:

– Allahın ən gözəl hədiyyəsi də, sınağı da övladdır. Hər bir valideyn övladının qayğısına qalır, onun xəstələnməməsi üçün əlindən gələni edir. Amma bəzən ata və ananın qayğısı, diqqəti uşaqlarımızı xəstəliklərdən uzaq tutmağa kömək edə bilmir. Bütün valideynlərin ən böyük istəyi övladının sağlamlığını etibarlı əllərə əmanət etməkdir. Amma o da xüsusi vurğulanmalıdır ki, ən gözəl həkim də, müəllim də valideynin özüdür. Bu mənada, valideynlərimizə övladlarının əqli, fiziki, mənəvi inkişafına həssas yanaşmalarını tövsiyə edərdim. Muxtar respublikada yaradılan müasir səhiyyə infrastrukturu, peşəkar həkimlərimizin olması, aparılan tibbi maarifləndirmə işləri imkan verir ki, valideynlərimiz ilk baxışda övladlarında hər hansı bir sağlamlıq problemləri hiss etmiş olsalar, onun ilkin mərhələdə, daha effektiv müalicəsi üçün vaxtında həkimə müraciət etsinlər. Sağlam gələcəyimizin məsuliyyətini həm də valideynlər daşımalıdır.

*Həkimlə bir saatdan çox həmsöhbət olduğum vaxtda onun mobil telefonuna tez-tez zəng gəlir, qapı döyülür. Kimisi yeni doğulan körpəsi, kimisi isə məktəb yaşındakı uşağı üçün məsləhətlər alır. Elə bu məqamda onun nə qədər məsuliyyətli bir peşəyə sahib olduğunu bir daha anlayıram. Yadıma böyük şair Nəriman Həsənzadənin "Bir insan ömrünü girov qoymuşam, bir şair ömrünü yaşatmaq üçün" misrası düşür. Görürəm ki, bu dəyərli xanım da bir insan ömrünü ona həsr edib ki, bir yox, min qadın, körpə ömrü yaşasın.*

**✍ Ramiyyə ƏKBƏROVA**

## Muxtar respublikanın incəsənət xadimləri Ərzurum şəhərində qastrol səfərində olublar



*2022-ci ilin Azərbaycan Respublikasında "Şuşa ili" elan edilməsi ilə əlaqədar Azərbaycanın Qarsdakı Baş Konsulluğunun təşkilatçılığı ilə Atatürk Universitetində Şuşa şəhərinin 270 illiyinə həsr olunmuş tədbir keçirilib.*

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivlərinin ifasında rəngarəng musiqi proqramı və Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorları tərəfindən yaradıcı tamaşa təqdim edilib.



Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorlarının təqdimatında çex yazıçısı Karel Çapekin "Ana" əsəri əsasında hazırlanan eyniadlı tamaşa alqışlarla qarşılanıb. Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Həcərxanım Məmmədova, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, rejissor assistenti isə Səyyad Məmmədovdur. Tamaşada Zəminə Məmmədova, Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəbli, Ələsgər Quliyev, gənc aktyorlardan Səyyad Məmmədov, Məmməd Mehdiyev, Uğur Nəsirli və Nurlan Sultanlının yaratdığı obrazlar tamaşaçıların marağına səbəb olub.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivlərinin ifasında konsert proqramı təqdim edilib. Bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayev, rejissoru Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev, dirijorları Cahangir Qurbanov və Elvin Əliyarov olan konsert proqramı 1 saat 30 dəqiqədən çox davam edib. Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfovun, Gülyanaq Fərzəliyevanın, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfüqar Mahmudovun, Ruhiyyə Hüseynovanın, Tural Bağırovun, gənc və istedadlı müğənnilər Nərmin Hüseynovanın və İlkin Abdullayevin ifasında təqdim olunan xalq mahnıları və Azərbaycan bəstəkarlarının bir-birindən gözəl və rəngarəng musiqi nömrələri, həmçinin rəqs kollektivlərinin maraqlı çıxışları tamaşaçıların zövqünü oxşayıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Özünüməşğulluq proqramının icrası davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən fevral ayı üzrə 30 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib. Özünüməşğulluq proqramının bu mərhələsində 14 ailənin hər birinə 2 baş iribuynuzlu, 9 ailənin hər birinə 20 baş xırdabuynuzlu, 2 ailəyə miniyerşumlayan, 2 ailəyə otbiçən aqreqat, 2 ailəyə qaynaqçı avadanlıqları və ləvazimatları, 1 ailəyə isə təmir-tikinti alət və ləvazimatları verilib. Özünüməşğulluğu təmin edilmiş ailələrin üzvlərindən 11 nəfərini sağlamlıq imkanları məhdud şəxs, 1 nəfərini cəzaçəkmə müəssisəsindən azad olunan, 1 nəfərini ailə başçısını itirən, 3 nəfərini müharibə veteranı, 3 nəfərini isə şəhid ailəsi üzvləri olan şəxslər təşkil edib.

Sözügedən aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib. Tədbirdə çıxış edən nazirliyin Dövlət Məşğulluq Agentliyinin direktoru Heydər Quliyev və Culfa Rayon Məşğulluq Mərkəzinin direktoru Ülvi Rzayev ötən dövr ərzində proqramın icrası çərçivəsində görülən işlərdən danışıb, əldə olunan nəticələrdən bəhs ediblər.

Tədbirin davamında yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Qeyd edək ki, bu mərhələdə təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə Şərur rayonunun Tumaslı kənd sakini Fərmail Quliyev həvəsləndirmə tədbirlərinə cəlb edilib və bu məqsədlə ona arpa-buğdaqıran aqreqat verilib.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan gömrükçüləri 98 kiloqrama yaxın narkotik vasitə aşkarlayıb



Naxçıvan gömrükçüləri tərəfindən daha bir fakt üzrə narkotik qaçaqmalçılığı cəhdinin qarşısı alınıb. Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Bolqarıstan Respublikasına PVC xammalı yükü aparan, İran İslam Respublikası vətəndaşının idarə etdiyi 63AA195/63AA196 dövlət nömrə nişanlı "Scania" markalı nəqliyyat vasitəsinə Culfa dövlət sərhədindən buraxılış məntəqəsində rentgen qurğusu vasitəsilə baxış keçirilən zaman nəqliyyat vasitəsinin yanacaq çənində şübhəli təsvirlər müəyyən edilib. Yoxlama zamanı nəqliyyat vasitəsinin sürücü tərəfində olan yanacaq çənində süni olaraq hazırlanmış, aşkarlanması, xüsusilə çətinləşdirilmiş üçhissəli gizli saxlanc yerindən, ümumilikdə, 113 bağlamada xalis çəkisi 97 kiloqram 800 qram olan narkotik vasitə – heroin aşkar edilib.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsinə (Qaçaqmalçılıq) uyğun olaraq cinayət işi açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Buraxılış imtahanı keçirilib

Martın 12-də Dövlət İmtahan Mərkəzi tərəfindən tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib. İmtahan respublikanın 17 şəhər və rayonunda təşkil edilib. 26 min 697 şagirdin iştirak etdiyi imtahanın aparılması üçün, ümumilikdə, 124 imtahan binası, 2058 imtahan zalı ayrılıb. İmtahanın idarə olunmasına 124 ümumi imtahan rəhbəri, 329 imtahan rəhbəri, 2524 nəzarətçi-müəllim, 249 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 124 bina nümayəndəsi ayrılıb.

Naxçıvan Muxtar Respublikasında imtahanlar Naxçıvan şəhəri də daxil olmaqla, 7 rayonda, ümumilikdə, 14 imtahan binası və 250 zalda təşkil edilib. İmtahan saat $11^{00}$-da başlanıb, 3 saat davam edib. 2984 şagirdin iştirak etdiyi imtahana 37 rəhbər, 299 nəzarətçi cəlb olunub.



İmtahanlarda istifadə olunan, yazılı cavab tələb edən açıqtipli tapşırıqların yoxlanılması prosesi ilə əlaqədar nəticələrin aprelin 8-dək elan olunması nəzərdə tutulub.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

***İlaxır çərşənbələrin sonuncusu Od çərşənbəsidir. Ayin və ritualların zəngin olduğu bu çərşənbəni xalq təntənəli şəkildə qeyd etməyi özünə borc bilir... İlin son ayının 4 çərşənbəsi xalq təqviminə əsasən ilaxır çərşənbələr adlanır. Su, Torpaq, Yel ünsürünün ardınca Günəş, istilik simvolu olan Od çərşənbəsi torpağı, tamamilə, dirildir, canlandırır. Dünyanın yaranmasında iştirak edən təbiətin dörd ünsüründən biri olan Od əski çağlardan türkün dünyagörüşündə müqəddəs bilinən anlayışlardandır. Od çərşənbəsi Günəşə, oda, odu qoruyub saxlama inamına əsasən yaranmışdır.***

*Xalq təqvimi*

## Kainatı isidən Günəşin simvolu ilə bağlı OD ÇƏRŞƏNBƏSİ

### *Əzəli yurd yerlərimizdə Vətən sevgisinin hərarəti ilə alovlanan odumuz-ocağımız daim yanar olsun*



Qədim türk mifologiyasına görə, odu Göy Tanrı veribdir. Şamanizmdə odun saflaşdırıcı gücünə inanılmış, ona görə də bədxah ruhların vurduğu mənfi təsirdən qorunmaq üçün odun təmizləyici gücündən istifadə edilmişdir.

Od çərşənbəsinə xalq arasında "üskü çərşənbə", "üskü gecəsi", "addı çərşənbə" də deyirlər. Od qədim türklərdə müqəddəs hesab edilir. Muxtar respublikamızın bölgələrindən toplanmış folklor örnəkləri arasında odla bağlı müxtəlif inanc nümunələri mövcuddur. Çox qədimdə təzə anadan olmuş uşağı odun, ocağın başına dolayar, sonra ananın qucağına verərdilər. Bununla uşağın paklandığına inanardılar. Əgər bu üsulla uşaq paklanmazsa, o, natəmiz hesab edilər, ana onu rahatlıqla qucağına ala bilməzdi. Bu mərasimin izləri elə ərazidə xalq yaddaşında yaşayan "Çevir ocağa, al qucağa" məsələndə özünü qoruyub saxlamışdır.

Odla bağlı müxtəlif folklor örnəkləri də məlumdur ki, bunlara kiçik janr nümunələri sırasında daha çox rast gəlmək mümkündür. "Od yanan yerdən tüstü çıxar", "Od qalar köz olar, qız qalar söz olar", "Od qalayıb oda düşmüşük" kimi atalar sözləri; "Çərşənbədə ocağı boş qoymazlar", "Ocaqda kül titrəyəndə od xeyrə oynayar" kimi inanclar; "Ocağın bərəkətli olsun", "Ocağın sönməsin", "Ocağına nur çilənsin" kimi alqış nümunələri qədim türk mədəniyyətində od-ocaq anlayışı ilə bağlı arxaik düşüncəni ifadə edir. Muxtar respublikamızın bəzi bölgələrindən toplanılan xalq yaradıcılığı örnəklərinə əsasən söyləmək mümkündür ki, Od çərşənbəsinin xarakterik xüsusiyyətlərindən biri də həmin gün qalanmış tonqal ətrafında yallı rəqsinin icrasıdır. Məlum olduğu kimi, qədim türk ənənəsində müxtəlif ayin və mərasimlər zamanı yallı rəqsinin icrası mütləq sayılırdı. Məhz Od çərşənbəsində tonqal ətrafında yallı rəqsinin icrası od hamisinə olan inancın qalıqlarını nümayiş etdirir. Tonqal ətrafında yallının icrası da od hamisinə olan ənənəvi təsəvvürdən irəli gələn hörmət və ehtiramı ifadə edir.

Qeyd edək ki, ilaxır çərşənbə – Od çərşənbəsi çərşənbələrin mərasim, ayin, etiqad, oyun və şənlikləri ilə ən zəngin olanıdır. Naxçıvanda Novruz bayramı ərəfəsində təkcə Od çərşənbəsində deyil, bütün ilaxır çərşənbələr zamanı axşamlar evlərin həyətində tonqallar qalanır. Ordubad rayonunda Novruzun ən çox sevilən ərəfəsi – ilaxır çərşənbə, yəni Od çərşənbəsi "Yeddiləvin" adlanır. Yeddiləvin zamanı oğlan evi qız evinə şirni apararkən orada şirniyyatın müxtəlif növlərindən olur. Buna görə də şirni növünün çoxluğunu göstərmək məqsədilə ona "yeddilövün", "yeddiləvin", "yeddilöyün" adı vermişlər. Həmin gün süfrələrə cürbəcür nemətlər düzülür. Bu nemətlər, əsasən, 7 adda olmalıdır. Belə ki, bu adət Azərbaycanın başqa regionlarında da özünü göstərməkdədir. Bəzi yerlərdə "yeddiləvin"ə "yeddisin" də deyirlər. Yeddiləvin axşamı tonqallar qalanır. Əhalinin bayram uğurunu – sevincini ifadə edən ən möhtəşəm tonqal həm də dağların uca nöqtəsində yandırılır. Hamının bir-birinə bu barədə ilk sualı belə olur: "Görəsən, Bəlkədə tonqal qalanıbmı?" Bəlkə dağında tonqalın qalanması hamının bayram sevincini birə-beş artırır.

Od çərşənbəsində Naxçıvan ərazisində icra olunan adətlərdən biri də danatma mərasimidir. Ordubad rayonundan topladığımız folklor örnəklərinə əsasən mərasim ərazinin gənc oğlan və qızları arasında keçirilir. Bir məhəlləyə toplaşan gənclər bir nəfəri seçərək onu yaxınlıqdakı çeşmədən su gətirməyə göndərirlər. Su gətirməyə gedən gəncə göstəriş verilir ki, o, yolboyu susub danışmamalıdır. Əgər danışarsa, gətirdiyi su təmiz hesab edilməz. Qoyulan şərtin icra olunub olunmadığını yoxlamaq üçün bir nəfəri onu güdmək üçün təyin edirlər. Əgər şərtə düzgün şəkildə əməl olunubsa, həmin su təmiz hesab edilir, mərasimdə iştirak edən hər kəs həmin sudan həm içir, həm də o sudan növbəti mərasim – Vəsfihal mərasimi üçün istifadə edirlər. Eyni zamanda suyu gətirən gənc də mükafatlandırılır. Vəsfi-hal mərasimi isə ancaq qızlar arasında keçirilir. Təmiz hesab edilən su bir cama tökülür. Cama mərasim iştirakçısı olan qızların üzük, sırğa və digər bəzək əşyaları da atılır. Mərasimi icra edən başçı bayatı oxuya-oxuya əlini cama salır, kimin əşyası camdan çıxarsa, ifa olunan bayatı ilə onun gələcək taleyini "müəyyən edirlər".

Naxçıvan inancları arasında ilaxır çərşənbənin ritual özəlliklərini daşıyan nümunələr olduqca çoxdur. İnanc, sınama, ovsun, falabaxma nümunələri isə bu baxımdan daha aktivdir:

Deyərlər ki, ilaxır çərşənbə gecəsi obaşa yaxın çayın suyu dayanar, söyüdlər başını əyib torpağa dəyər. Bu vaxt hər niyyət yerinə yetər.

İlaxır çərşənbədə qızlar əlində güzgü tutarlar. Ayın şəkli düşər güzgüyə. Şəklin içində oğlan əksi görünsə, sevdiyi oğlana gedər, – deyərlər.

İlaxır çərşənbə Od çərşənbəsi olduğundan həmin gün qalanmış ocağın külündən götürüb suya tökərlər.

İlaxır çərşənbənin əsas mərasimlərindən biri qulaq falıdır. Qız-gəlinlər bir yerə toplaşar, yavaş-yavaş qonşu evlərinə gedərlər. İçəriyə daxil olar, ürəklərində arzu tutarlar. Arzu tutmazdan öncə ayaq altına qıfıl qoyarlar. Təşrif buyurduqları ev sakinlərinin həyətində, ya da qapısının ağzında kiminsə olmasından xəbərləri olmaz. Ev adamlarının dilindən səslənən hər bir sözlə mərasim iştirakçıları ürəklərində tutduğu arzularını yozarlar. Odur ki, ulularımızın tövsiyəsinə görə, ilaxır çərşənbədə evdə xeyir saçan, xeyirli sözlər danışmaq məqbul sayılar.

*"Türkün alqışı alqışdır", – deyən ulularımızın hikmətli söz xəzinəsindən aldığımız alqışlara qoşularaq deyirik ki, ocağımız sönməsin!, Ulu Tanrı ocağımızdan ruzi-bərəkəti əskik etməsin, tonqallarımız Vətən torpağında hər zaman gur yansın! Biz tonqallarımızı işğaldan azad edilmiş doğma Qarabağımızda gerçəkləşmiş arzuların qəlbimizə çilədiyi sevinc odu ilə alovlandırırıq. Əzəli yurd yerlərimizdə Vətən sevgisinin hərarəti ilə alovlanan odumuz-ocağımız daim yanar olsun!*

***İlaxır çərşənbəniz mübarək!***

**Aytən CƏFƏROVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru***

## Yaşıllaşan təbiətin, halal zəhmətin rəmzi
# SƏMƏNİ

***Mart ayı girdisə, təbiət canlanır, quşların səsi ətrafı bürüyür, torpaq altından yaz çiçəkləri baş qaldırır, bənövşənin, novruzgülünün ətri hər tərəfə yayılır, yaşıl düzlər, çəmənlər insana xoş əhvali-ruhiyyə bəxş edir. Bu ay həm də türk xalqlarının birlik və həmrəylik bayramı olan Novruzla əlamətdardır. Qədim diyarımızda baharın gəlişini simvolizə edən qədim xalq bayramımıza günlərdir, hazırlıq gedir. İndi evlərdə, bağçalarda hər şey təmizlənir, yenilənir. Novruza hazırlıq işləri içərisində səməni göyərtmək ənənəsi isə xüsusi əhəmiyyət kəsb edir. Qədim zamanlardan insanlar təbiətin oyanmasının və bitkilərin canlanmasının rəmzi olaraq qablarda buğda göyərdib, bayram süfrəsi üçün səməni bişirərdilər. Bu ənənə qədim xalqların şifahi poeziyasında da bolluq, səadət arzusunu ifadə edib.***



Tədqiqatlarda səməni göyərtmək ənənəsinin Zərdüştlükdən daha əvvələ aid olduğu bildirilir. Yunan tarixçisi Plutarx (bizim eranın, təxminən, 46-127-ci illər) göstərib ki, qədim Azərbaycanda (Midiyada) buğda çox müqəddəs hesab edilib, yazın əvvəllərində midiyalılar buğdanı cücərdiblər. Maraqlıdır ki, bu adət günümüzə səməni göyərtmək şəklində gəlib çıxıb.

Səməni cücərdilməsi, halvası və bir çox xüsusiyyətləri haqqında ətraflı məlumatı Ordubad rayon sakini Sədaqət Babayevadan alırıq. Müsahibim deyir ki, səməni bolluq, bərəkət nişanəsi kimi Novruz bayramı ərəfəsində bütün evlərdə göyərdilir. Onu buğda, arpa, noxud, mərci və digər dənli bitkiçilik məhsullarından hazırlamaq mümkündür. Naxçıvanda səməni, adətən, buğdadan qoyulur. Bunun üçün bir qab götürərək ona uyğun ölçüdə buğdanı suya salırıq. Suda bir sutka qaldıqdan sonra buğdanı çıxarıb nazik bir tənzifə tökür, bir boş qabın içərisinə qoyuruq. Hərdən sulayır və sulayanda da çeviririk ki, hər yerinə su bərabər ölçüdə paylansın və buğda yaxşı göyərsin. Artıq göründə ki, buğda çırtlayıb, tənzifdən ayırıb sini, məcməyi, yaxud boşqaba barmaq qalınlığında sərir, üstünü dəsmal və ya tənziflə örtürük (əgər yaxşı çırtlayıbsa, buna ehtiyac yoxdur). Üzərinə gündə bir dəfə su çiləyirik. Səməni isti yerdə, təqribən, bir həftə, on günə kimi göyərir. Sonra yaşıl rəngi ilə hər evə gözəllik bəxş edən, incə beli ilə, sanki nazlı gəlini xatırladan səmənini belini qırmızı kəmərlə bağlayıb, Novruz süfrəsində ən görkəmli yerə qoyuruq.

Müsahibim qeyd edir ki, göyərdilmiş səməni əvvəllər qohum-qonşuya da pay verilər, təzə səməniyə mahnılar qoşulub oxunardı. Səməni həm də əkinin, məhsul bolluğunun rəmzi kimi xüsusi əhəmiyyət daşıyardı. Səməni göyərtməklə, sanki ümidini, arzusunu, ruzisini göyərdirdi əkinçi nənə-babalarımız:

*Səməni, ay səməni,*
*Göyərdərəm mən səni.*
*Sən gələndə yaz olur,*
*Yaz olur, avaz olur...*

Onu da yadda saxlamaq lazımdır ki, bayram bitdikdən sonra səməni mütləq təmiz, axar suya atılmalıdır. Belə bir inanc da vardır ki, onu suya atarkən niyyət edən insan növbəti ilədək arzusuna çatır. Bu ənənə uzun illərdən bəridir ki, bir çox bölgələrimizdə, xüsusilə də Ordubadda bu gün də qorunub saxlanılır.

Sədaqət xanım bayram günlərində hazırlanan xüsusi şirniyyatdan səməni halvası (horrası) haqqında da danışır: – Səməni halvası bişirmək ənənəsi türk xalqlarında geniş yayılıb. Onlar bunu ellikdə, mərasim kimi qeyd edir, bu mərasimi birlik və bərabərliyin rəmzi kimi qiymətləndirirlər. Bu gün səməni şirniyyatı Ordubadda xüsusi bişirilir. Bişirilmə qaydasına gəlincə isə göyərdilmiş bir kiloqram buğda-səməninini maşında çəkirik. Ayrıca böyük qazana beş-altı litr su tökür və suyu ocaqda isidirik. Buğdaları ətçəkən maşından keçirdikdən sonra üzərinə isidilmiş suyu tökür, məhlulu qarışdırırıq. Sonra aşsüzəndən süzür, alınmış suyu yenidən balaca gözlü süzgəcdən keçirir, sonra içərisinə iki kiloqram un əlavə edirik. Əlimizlə yaxşıca yoğururuq ki, içərisindəki düyünlər əzilsin. Qazanın üzərinə aşsüzəni qoyur, hazırladığımız xəmiri yenidən ondan keçirir və ocağın üzərinə qoyub bulaya-bulaya qaynadırıq. Bu zaman içəridə əmələ gələn düyünlər də itir. Qaynara düşəndən sonra beş-on dəqiqə qaynadıb götürürük. Qaynayan zaman üzdə yaranan ağ köpükləri qaşıqla yığır və sonra soyumaq üçün bir kənara qoyuruq. Soyuduqdan sonra ləzzətlə içilir. İstəyən bişənə yaxın onun içərisinə badam, qoz, fındıq ləpəsi, darçın, mixək, zəncəfil, hil kimi ədviyyatlar da qata bilər. Bişirilən horradan qonum-qonşuya da pay tuturuq. Qeyd edim ki, şəkər qatılmamasına baxmayaraq, çox şirin və dadlı olur. Xüsusən də soyuq havalarda cana dərmandır.

Müsahibim bildirir ki, bayram günlərində belə bir adət də vardır. Hüzrlü olanlara, bayram keçirə bilməyənlərə ilaxır çərşənbə və ya Novruz axşamı səməni xonçası göndərirlər. Xonçaya bayram üçün hazırlanmış bütün nemətlərdən qoyular və ətrafına şam düzülər. Bu şamlar ailəni hüzndən, yasdan çıxarmaq məqsədilə hüzrlünün evində yandırılar. Novruzla əlaqəli el şənliklərində oynanılan "Səməni" rəqsi isə ən qədim rəqslərimizdən biridir. Baharın gəlişinə həsr edilmiş ənənəvi şənlik rəqsini yalnız qadınlar və qızlar oynayarlar. Rəqs əl çalmaqla müşayiət olunar. Sədaqət xanımın səməni haqqında maraqlı söhbəti üçün ona təşəkkür edirik.

*Yurdumuza Novruz gəlir! Novruz bayramı həm də ona görə əzizdir ki, nənə-babalarımızdan bizə yadigar qalan adət-ənənələrimizi dirildir, onları həyatımızda tətbiq edirik. Bayram süfrələri açır, qohumları, böyükləri bir-bir ziyarət edib onların xeyir-duasını alırıq. Bir sözlə, Novruzu şadlıqla, deyə-gülə yola salırıq. Novruzun incəbelli nazlı gəlini səməni isə bayram bitənə qədər evimizə yaraşıq və gözəllik qatır.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Şahmat üzrə norma və reytinq yarışları keçirilir



Şahmat Mərkəzində yerli və xarici şahmatçıların iştirakı ilə beynəlxalq reytinq statuslu yarışlar təşkil olunub.

Dairəvi sistem üzrə keçirilən norma turnirində (13-19 mart) Naxçıvan şahmatçıları ilə yanaşı, Azərbaycan, Gürcüstan, İran və Türkiyədən olan zəka sahibləri olmaqla, ümumilikdə, 10 nəfər iştirak edir. Qrossmeyster, FIDE ustası və beynəlxalq ustaların mübarizə apardığı yarış 9 turdan ibarətdir.

Reytinq turnirində (13-17 mart) isə biri İran, digərləri yerli şahmatçılar olmaqla, müxtəlif yaş və reytinq 36 şahmatçı İsveçrə sistemi üzrə mübarizə aparır. Turniri ilk 5 pillədə tamamlayanlara və 1500-1700, 0-1500 reytinq əmsalı üzrə birinci yerlərə pul mükafatı təqdim olunacaq.

***Naxçıvan Muxtar Respublikası Gənclər vəİdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Cəfərov Natiq İqbal oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Əliyev Nicat Namiq oğlunun adına olan AD-0040413 seriya nömrəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 242